# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Sauli NİİNİSTÖ,***
***Finlandiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizə Portuqaliya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır və ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Əminəm ki, ölkələrimizi və xalqlarımızı birləşdirən əlaqələri ikitərəfli səviyyədə bütün sahələrdə və çoxtərəfli kontekstdə daha da inkişaf etdirəcəyik.

Cənab Prezident, bir daha Sizə təbriklərimi çatdırır, Azərbaycan xalqının firavanlığı və inkişafı üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əziz Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə dost Azərbaycan xalqı ənənəvi və yüksək səviyyəli ikitərəfli münasibətlərimizə uyğun olaraq daim uğurlu nəticələr əldə etməkdə davam edəcəkdir.

2023-cü ildə Bakıda keçirilmiş görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram və Sizinlə tez bir zamanda İtaliyada və ya ölkənizdə yenidən görüşəcəyimə ümid edirəm.

Sizə ən yüksək ehtiramımı bildirir, səmimi salamlarımı çatdırıram.

*Hörmətlə,*

***Adolfo URSO,***
***İtaliya Respublikasının şirkətlər və "Made in Italv" naziri***

❖ ❖ ❖

Hörmətli Prezident Əliyev.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan xalqının böyük əksəriyyəti yüksək inam göstərərək dövləti idarə etmək üçün növbəti dəfə mandatı Sizə həvalə etdi. Xalq Sizə etimad göstərdi, qətiyyətli və güclü lider olduğunuz üçün ölkənin sükanını yenidən Sizə etibar etdi.

Əminəm ki, Siz Azərbaycan üçün və Birləşmiş Ştatlar ilə əlaqələrin inkişafı istiqamətində gördüyünüz gözəl işləri davam etdirəcəksiniz. Ölkəniz xalqın mənafeyini hər şeydən üstün tutan, həm daxildə, həm də xaricdə sülh və firavanlığa sadiq olan güclü və bacarıqlı liderə layiqdir.

Ümidvaram ki, yeni prezidentliyiniz dövründə ölkələrimiz iqtisadi və təhlükəsizlik sahəsində əməkdaşlığı daha da gücləndirəcək. Hesab edirəm ki, ölkələrimiz arasında ikitərəfli qarşılıqlı faydalı əlaqələr bundan sonra da inkişaf etməli və möhkəmlənməlidir.

Sizi yenidən Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edirəm. Tanrı Sizi və bütün azərbaycanlıları qorusun, yeni liderlik dövrünüz sülh, firavanlıq və böyük uğurlar gətirsin!

*Hörmətlə,*

***Pol QOSAR,***
***ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Hollivud kinorejissorlarından ibarət komandam, Florida ştatının Sarasota Yəhudi İcması adından və şəxsən öz adımdan təbriklərimi çatdırıram. Qoy bu gözəl ölkə Sizin rəhbərliyinizlə inkişaf etməyə davam etsin.

Mən Azərbaycanın "mədəniyyət səfiri"yəm. Debüt romanım olan "Yetim səma" - Bakıda böyüdüyüm illərin yarıuydurma təsviri ABŞ və Böyük Britaniyanın əsas KİV-ində işıqlandırıldı. Hər iki ölkəyə bir neçə qastrol səfərinə çıxdım, kitabımı təbliğ etməklə yanaşı, tamaşaçılara Azərbaycan haqqında məlumat verdim. Kitabımı oxuyan keçmiş birinci xanım Mişel Obama məni Azərbaycanı Ağ Evin multikultural assambleyasında təmsil etmək üçün dəvət etdi.

Hazırda Diasporla İş üzrə Dövlət Komitəsi ilə birgə Azərbaycanın Qafqaz dağlarında çəkilmiş "Leylanın skripkası" qısametrajlı filminin təbliği ilə məşğuluq. Film nominasiyaya layiq görüldü və aparıcı aktrisamız Beynəlxalq Monako Film Festivalında nüfuzlu "Mələk" mükafatını qazandı.

Bu missiyanı davam etdirmək - doğma Vətənimi yaşadığım ölkəyə tanıtmaq həm sevinc, həm də şərəfdir. Ümid edirəm ki, bir gün Sizinlə şəxsən görüşüb bu sevinci bölüşəcəyəm.

Cənab Prezident, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***Ella LEYA,***
***ABŞ-də fəaliyyət göstərən "B Elite Productions"ın direktoru***
*Amerika Birləşmiş Ştatları*

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Azərbaycan Respublikasının bütün suveren ərazisində keçirilən prezident seçkiləri iqtisadi tərəqqinin sürətləndirilməsi, insan hüquqları və fundamental azadlıqların, dinc birgəyaşayışın qorunması üçün mühüm mərhələdir.

Fürsətdən istifadə edərək bildirirəm ki, BMT-nin Əhali Fondu demoqrafiya ilə bağlı məsələlərə, gender bərabərliyinin təşviqi və qadınların sağlamlığının qorunmasına yönəlmiş çoxşaxəli təşəbbüslərində Azərbaycan hökuməti ilə uzunmüddətli tərəfdaşlığa sadiqliyini bir daha təsdiqləyir. Həmçinin BMT-nin Əhali Fondu özünün 2021-2025-ci illər üzrə Ölkə Proqramı çərçivəsində, o cümlədən Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa kontekstində Azərbaycan hökuməti ilə əməkdaşlığa sadiqliyini bir daha bəyan edir. Cari il üçün prioritet COP29 konfransına hazırlıqları dəstəkləmək məqsədilə BMT-nin Əhali Fondunun müqayisəli üstünlüyünə uyğunlaşdırılmış iqlim dayanıqlılığı səylərinə veriləcəkdir.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***Məryəm XAN,***
***BMT-nin Əhali Fondunun Türkiyədəki nümayəndəsi, Azərbaycan və Gürcüstan üzrə ölkə direktoru***

❖ ❖ ❖

Zati-aliləri.

Prezident kimi fəaliyyətə başlamağınız münasibətilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyi adından səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

UNICEF-lə Azərbaycan Hökuməti arasında 30 ildən artıq müddəti əhatə edən yüksəksəviyyəli tərəfdaşlığa istinadən Azərbaycanda uşaq hüquqları gündəliyinin həyata keçirilməsində əməkdaşlığımızın davamını səbirsizliklə gözləyirəm. UNICEF uşaqlar uçun daha yaxşı gələcəyin qurulmasında və onların tam potensiallarının inkişaf etməsi üçün imkanların yaradılmasında Azərbaycan Hökuməti ilə yaxından işləmək öhdəliyinə sadiqdir.

COP29 konfransı qlobal iqlim müzakirələrinin ön sıralarında uşaqlara və gənclərə yer verilməsi baxımından Azərbaycanın aparıcı rol oynaması uçun xüsusi fürsət yaradır. Uşaqların və gənclərin iqlim dəyişikliyi ilə mübarizə tədbirlərində əhəmiyyətli dərəcədə iştirakını dəstəkləmək və onları daha dayanıqlı gələcək üçün tələb olunan təhsil və bacarıqlarla təmin etmək məqsədilə Azərbaycan Hökuməti ilə tərəfdaşlıq etməyə hazırıq.

Zati-aliləri, an yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Saca Faruq ABDULLA,***
***UNICEF-in Azərbaycandakı nümayəndəsi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Seçkilərin nəticələri göstərdi ki, ölkənin və cəmiyyətin konsolidasiyası, Azərbaycanın beynəlxalq arenada nüfuzunun möhkəmlənməsi üzrə Sizin ardıcıl kursunuz ən böyük dəstəyə malikdir.

Hörmətli İlham Heydər oğlu, Sizə cansağlığı və dost Azərbaycanın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Anatoli TORKUNOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru,***
***Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qələbəniz Sizin bütün təşəbbüslərinizin əsasında hər şeydən əvvəl ümumbəşəri dəyərləri əsas götürən, ölkəni dinamik inkişaf və tərəqqi yolu ilə inamla irəli aparan tərəqqipərvər və təcrübəli rəhbər kimi xalqın etimadını qazandığınızı təsdiq edir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür, tükənməz enerji, dost Azərbaycan xalqının rifahı naminə çoxşaxəli fəaliyyətinizdə yeni qələbələr və uğurlar arzulayıram.

*Hörmətlə,*

***Vahid ƏLƏKBƏROV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində uğurlu qələbəniz münasibətilə Türk İnvestisiya Fondu adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram. Bu möhtəşəm qələbə qardaş Azərbaycan xalqının Sizin liderliyinizə, eləcə də çox mühüm strategiyanıza olan inamını və etimadını bir daha nümayiş etdirdi.

Türk birliyinə gedən yolun hər addımında inkişafa və gücə şahidlik etməkdən məmnunluq duyan biri kimi Qarabağdakı tarixi qələbəni, qardaş Azərbaycanın torpaqlarının azad olunmasını xüsusi vurğulamaq istəyirəm. Azərbaycan xalqının əzmini, qətiyyətini nümayiş etdirən və Türk dövlətlərinin qürur duyduğu bu böyük qələbə həm də Türk birliyinin gücünə mühüm töhfədir. Qoy bu nailiyyət Türk dünyasının tərəqqisini və birliyini daha da gücləndirsin.

Sizin səmərəli rəhbərliyinizlə Türk dünyası müxtəlif əməkdaşlıq sahələrində önəmli nailiyyətlər əldə edib və bunlar ümumi inkişafa və rifaha töhfə verib. Ona görə də mən əminəm ki, Türk İnvestisiya Fondunun təsis olunmasına və onun fəaliyyətinə göstərdiyiniz güclü dəstək Türk dünyasının daha çox inteqrasiyasına töhfə verəcək və Türk dövlətlərinin mühüm qlobal iqtisadi oyunçu və investisiya baxımından cəlbedici məkana çevrilməsinə kömək edəcək.

Zati-aliləri, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edirəm.

*Hörmətlə,*

***Bağdad AMREYEV,***
***Türk İnvestisiya Fondunun prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində Azərbaycan vətəndaşlarının yüksək etimadı ilə yenidən dövlət başçısı seçilməyinizi məmnuniyyətlə qarşıladıq. Bu münasibətlə zati-alinizi səmimi-qəlbdən təbrik edirəm.

"Bir millət, iki dövlət" prinsipi əsasında Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin bundan sonra daha da möhkəmlənəcəyinə inanıram.

Hörmətli Prezident, Sizə Azərbaycan xalqı və dövləti naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Öndər KAHVEÇİ,***
***Türkiyənin KAMU-SEN Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Bu, ölkənizin vətəndaşlarının Sizə göstərdiyi böyük etimadın təzahürüdür və tamamilə qanunauyğundur.

Sizin ölkələrimiz arasında qardaşlıq münasibətlərinin inkişafına şəxsi töhfənizi yüksək qiymətləndiririk. Ümidvarıq ki, bu münasibətlər tərəfdaşlıq prinsipi əsasında gələcəkdə daha da möhkəmlənəcəkdir.

Sizə və ailənizə cansağlığı, əmin-amanlıq, Azərbaycanın firavanlığı naminə fəaliyyətinizdə yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

***II İLİYA,***
***Bütün Gürcüstanın Katolikos-patriarxı, Mtsxeta və Tbilisi arxiyepiskopu, Pitsunda, Suxumi və Abxaziya mitropoliti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Prezident seçkilərində qələbənizlə əlaqədar xalqınızla sevincini bölüşən siyasətçilər və ictimai xadimlərlə yanaşı, mən də Sizi və bütün Azərbaycan xalqını ölkənin ali vəzifəsinə seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz sadiq tərəfdarlarınızı - Gürcüstan ziyalılarını ruhlandırır.

Bizim üçün başlıca olan qədim qardaşlıq ənənələrinin, xalqlarımız arasındakı dostluq münasibətlərinin və mədəni əlaqələrin təkcə dövlət səviyyəsində deyil, həm də ictimai səviyyədə davam etdirilməsidir.

Siz dərin zəka, istedad və böyük ürək sahibisiniz.

*Dərin hörmətlə və minnətdarlıqla,*

***Georgi STURUA,***
***Gürcüstan-Azərbaycan Dostluq və Mədəni ƏlaqələrAssosiasiyasının İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə "Planetar Səhiyyə Təşkilatı" adından ən səmimi təbriklərimizi çatdırıram.

Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan mühüm tərəqqiyə, xüsusilə də iqtisadi inkişafa nail olub. Ölkənizin inkişafı və xalqınızın rifahı istiqamətində gördüyünüz işlər təqdirəlayiqdir.

"Planetar Səhiyyə Təşkilatı"nın rəhbəri kimi Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıqda maraqlıyam. İndiki və gələcək nəsillər üçün daha sağlam planetlə bağlı bizim məqsədlərimiz Azərbaycanın bu istiqamətdə gördüyü işlərlə uyğundur.

Cənab Prezident, Sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Milana QORENŞTEYN,***
***İsraildə yerləşən "Planetar Səhiyyə Təşkilatı" beynəlxalq qeyri-hökumət təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident,

Bütöv Azərbaycanın hər yerində keçirilən növbədənkənar prezident seçkilərində qələbəniz münasibətilə Amerika Azərbaycan Cəmiyyətinin üzvləri adından Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram. Biz tam əminik ki, Siz bundan sonra da sevimli Vətənimizin tərəqqisi, firavanlığı və əmin-amanlığı naminə əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizin və ailə üzvlərinizin Xankəndində səs verdiyini görmək bizi çox qürurlandırdı. Son 30 ildə ilk dəfə olaraq işğaldan azad edilmiş torpaqlarımızda seçkilər keçirildi. Bu xoşbəxtliyi bizə bəxş etdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Hörmətli Prezident, Sizə işlərinizdə uğurlar arzulayıram. Dünya azərbaycanlıları Sizin beynəlxalq və regional təhlükəsizliyə töhfənizi yüksək dəyərləndirirlər.

Amerika Azərbaycan Cəmiyyətinin əsas məqsədi Azərbaycan və ABŞ arasında körpü rolunu oynamaqdır və biz bununla bağlı səylərimizi davam etdirəcəyik.

Cənab Prezident, səmimi təbriklərimizi və dərin ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Tomris AZƏRİ,***
***Amerika Azərbaycan Cəmiyyətinin sədri***
***Amerika Birləşmiş Ştatları***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Ukrayna Azərbaycanlılarının Həmrəylik Konqresinin üzvləri adından Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Növbədənkənar prezident seçkilərində inamlı qələbəniz Sizin bir daha dünya azərbaycanlılarının Lideri olduğunuzu əyani şəkildə sübut etdi. Ukraynada mövcud vəziyyət və müharibə şəraitinə baxmayaraq, bu ölkədə yaşayan Azərbaycan vətəndaşları Zəfər seçkisinə gələrək öz layiqli Liderini seçdi.

Möhtərəm Prezident, Sizi bir daha parlaq qələbə qazanmağınız münasibətilə təbrik edirəm.

Sizə cansağlığı, fəaliyyətinizdə yeni-yeni zirvələr arzu edirəm.

Tanrı Sizi, dövlətimizi və xalqımızı qorusun!

*Dərin hörmətlə,*

***İlqar MƏMMƏDOV,***
***Ukrayna Azərbaycanlılarının Həmrəylik Konqresinin sədri.***
*Ukrayna, Jitomir şəhəri.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Qazaxıstan Respublikasında yaşayan azərbaycanlı qadınların adından Sizi növbədənkənar prezident seçkilərində inamlı qələbə, Azərbaycan xalqının böyük etimadı münasibətilə təbrik edirəm. Biz xoşbəxtik ki, Siz bizim Prezidentimizsiniz. Siz düşmən tərəfindən işğal olunmuş torpaqları azad edən, xalqımızın şərəfini bərpa edən Lidersiniz.

Hörmətli Prezident, Siz və atanız - Ulu Öndər Heydər Əliyev Azərbaycanın xilaskarı oldunuz. Sizin müdrik siyasətiniz sayəsində işğal altında olan torpaqlarımız azad olundu. Sizin adınız və nailiyyətləriniz təkcə Azərbaycanın yox, əbədi olaraq bütün türk dünyasının minillik tarixinə qızıl hərflərlə yazılıb.

Sizin qələbəniz bütün dünyadakı azərbaycanlıları sevindirib, biz hamımız müdrik, güclü, iradəli, qorxmaz, səriştəli, tanınmış, əzəmətli Liderlə fəxr edirik. Yaşadığım ölkədə, işlədiyim müəssisədə Sizin haqqınızda eşitdiyim xoş sözlərə görə qürur hissi keçirirəm. Andiçmə mərasimindəki çıxışınızı da qürur və sevinc göz yaşları ilə izlədik.

Biz xoşbəxtik ki, Vətənimiz qalib ölkədir, övladlarımız bu günləri görür, Azərbaycanın hər uğuruna sevinir, nəvələrimiz Azərbaycanın yeni tarixinin yazılmasına şahidlik edir. Hamımız tarixi Vətənimizə kömək etmək əzmindəyik. Biz bu hissləri Vətən həsrəti ilə yaşamış valideynlərimizin, ata-babalarımızın əvəzinə də yaşayırıq.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan böyük uğurlar qazanmış və dünya arenasında layiqli yerini tutmuşdur. Hər zaman Vətənimizdəki hadisələri izləyir, Sizin siyasətinizi dəstəkləyir, dünyamiqyaslı Lider kimi yüksək nüfuzunuzla fəxr edirik.

Azərbaycandakı növbədənkənar prezident seçkiləri xalq birliyinin, ölkə rəhbərinə rəğbətin, demokratiya və şəffaflığın nümunəsi oldu. Xalq Sizin simanızda Azərbaycanın xoşbəxt gələcəyinə səs verdi.

Qazaxıstanın azərbaycanlı qadınları Sizə, gözəl ailənizə möhkəm cansağlığı, xoşbəxtlik və uzunömürlülük, ümumi evimiz Azərbaycana firavanlıq arzulayır!

Tanrı Sizi qorusun!

*Hörmətlə,*

***Ceyran MƏMMƏDOVA,***
***Qazaxıstan Xalq Assambleyasının Almatı şəhərindəki Azərbaycanlılar Assosiasiyasının Azərbaycanlı Qadınlar Şurasının sədri***
*Qazaxıstan Respublikası, Almatı şəhəri.*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Can Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin dəyərli oğlu, Qarabağın fatehi, Sizi yenidən Prezident seçilməyiniz münasibətilə təbrik edirəm.

Allahdan Sizə uzun ömür, cansağlığı, uğurlar arzu edirəm. Allah nəsib edərsə, Sizi görməyi və şəxsən təbrik etməyi arzulayıram.

*Hörmətlə,*

***Muammer AKSOY,***
*Türkiyə Respublikası, Mersin şəhəri*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başlanan Azərbaycanın inkişaf yolu zati-alinizin qətiyyətli siyasəti ilə ən yüksək zirvəsinə çatdı. Ölkəmizə rəhbərlik etdiyiniz son 20 ildə Azərbaycan dövləti misli görünməmiş uğurlara və qələbələrə nail oldu, dünyada öz layiqli yerini tutdu.

Daxili və xarici siyasətdə qazanılan nailiyyətlər dövlətin sütunlarını möhkəmləndirməklə yanaşı, xalqımıza firavanlıq, 30 ilə yaxın müddətdə işğal altında olan Vətən torpaqlarımıza azadlıq, ölkəmizə suverenlik bəxş etdi, Qərbi azərbaycanlılarda tarixi vətənlərinə dönmək inamını möhkəmləndirdi. Xalq-ordu birliyi və zati-alinizin öndərliyi ilə qazanılan Vətən müharibəsi Zəfəri uzun illərdən bəri qələbə həsrətilə yaşayan bütün dünya azərbaycanlılarına qalibiyyət ruhu gətirdi.

Qədirbilən xalqımızın qalibiyyət ruhu özünü 7 fevral - Prezident seçkilərində yenidən bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları bu seçkilərə Zəfər seçkisi kimi yanaşdı və Sizə səs verməyi özlərinin vəfa borcu hesab edərək seçkilərə qatıldılar. Zəfər seçkiləri Azərbaycan xalqının böyüklüyünün, öz dövlətini qorumaq eşqinin, Qalib Liderə sədaqətinin göstəricisi kimi dövlətçilik tariximizə yazılmış oldu. Xalqımız zati-alinizin prezident seçkilərindəki növbəti qələbəsini qəhrəman ordumuzun Şuşadakı şanlı zəfəri kimi qarşıladı. Xalqın iradəsi Qarabağın və Şərqi Zəngəzurun azadlığını həzm etməyən bədxah xarici qüvvələrə ən böyük cavab oldu.

Səsvermə hüququ olan bütün dünyadakı azərbaycanlılar kimi Qərbi azərbaycanlılar da Sizə səs verərək bununla öz tarixi vətənlərinə zati-alinizin rəhbərliyi altında qayıtmaq arzularını ifadə etdilər. Biz əminik ki, məhz bu arzumuz Sizin sarsılmaz siyasi iradəniz, ali sərkərdəliyiniz və qalib öndərliyinizlə reallaşacaqdır.

Cənab Prezident,

Prezident seçkilərində qazandığınız növbəti möhtəşəm qələbə münasibəti ilə Sizi Qərbi Azərbaycan İcmasının üzvləri, bütün dünyadakı Qərbi azərbaycanlılar adından səmimi qəlbdən təbrik edir, daha qüdrətli Azərbaycan naminə atacağınız hər bir addımda böyük uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Əziz ƏLƏKBƏROV,***
***Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı,***
***Misir MƏRDANOV,***
***İcmanın Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü,***
***Vahid NOVRUZOV,***
***Nəzarət-Təftiş Komissiyasının sədri, professor,***
***Əhliman ƏMİRASLANOV,***
***İcmanın Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik,***
***Məlahət İBRAHİMQIZI,***
***Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı,***
***Elxan HÜSEYNOV,***
***Ziyalılar Şurasının sədri,***
***Ramin MƏMMƏDOV,***
***Gənclər Şurasının sədri, Milli Məclisin deputatı,***
***Mürvət HƏSƏNLİ,***
***Qəyyumlar Şurasının sədri.***
*Azərbaycan Respublikası, Bakı şəhəri*